UOT 81
https://doi.org/10.59849/2311-8482.2025.3.100

RÖYA ZEYNALOVA*

# İNGİLİS DİLİNDƏ MODALLIQ: İDRAKİ VƏ DEONİTİK PERSPEKTİVLƏR

*Modallıq real dünya, mümkünlülük və lazımlılığını ifadə edən və insan nitqində çox işlənən bir kateqoriyadır. Bu məqalə modallığın iki əsas kateqoriyası olan idraki və deonitik modallığın əsas apektlərinə diqqət yönəldilib. Məqalədə modal fellər, yarımmodallara da toxunulub. Bəzi modal fellərin həm idraki, həm də deonitik olması nümunələrlə izah edilib. Vurğulanıb ki, modalların bu ikili xüsusiyyəti onların ifadə etdiyi praqmatik mənadan asılıdır.*

***Açar sözlər***; *modallıq, modal fellər, idraki modallar, denitik modallar*

## Giriş

Modallıq əksər araşdırmaçıların diqqətini çəkən bir kateqoriyadır. Bizim danışığımızda əksər ifadələr modallıqla bağlıdır. Modallıq daha çox mümkünlük və vaciblikdən bəhs edir.Ümumilikdə alimlər modallığı iki böyük kateqoriyaya bölürlər. İdraki (epistemic) və deonitik (deonitic) modallıq. Modal fellər modallığın əsas daşıyıcılarıdır. Modallıq mühüm semantik kateqoriyalardan biridir. Mümkünlülük və vaciblikdən bəhs edən linqvistik kateqoriya hesab edilir. O, can\must\ should\ may\must\can\ought to\could\might\need\have\able to modalları və s. ilə sıx bağlıdır və onlar mümkünlülük, gümanlılıq, lazımlılıq, icazə, məcburiyyət və s. bildirir. "Mood" termini bəzi alimlər tərəfindən modallıqla eyni mənada işlənsə də, əksər alimlər bununla razı deyil və onların müxtəlif konseptlər olduğu qənaətindədirlər.[4] Lakin modallıq heç də təkcə modal fellərdən asılı deyil. Digər başqa qrammatik kateqoriyalar da zərflər, isimlər, sifətlər, fellər modallıq göstəricisi ola bilirlər. Amma modal fellər ümumilikdə modallığın ilkin mənbəsi hesab edilir.

Modallıq insan düşüncəsinin və ünsiyyətinin ayrılmaz bir hissəsidir. O, danışanın mövqeyini, münasibətini və fikrinə olan əminlik dərəcəsini ifadə etməkdə mühüm rol oynayır. Dilçilikdə modallıq, ümumilikdə, danışanın ifadə etdiyi fikrə münasibətini, ehtimalları, ehtimallığın dərəcəsini, zərurilik və ya icazə kimi halları çatdırmaq üçün istifadə olunan dil vasitələri toplusu kimi qəbul olunur. Xüsusilə ingilis dilində modallıq həm qrammatik, həm də leksik vasitələrlə ifadə olunur və bu baxımdan zəngin və çoxşaxəli bir anlayışdır.Modallığın iki əsas növü – epistemik və deontik modallıq – dilçiliyin müxtəlif sahələrində geniş şəkildə tədqiq olunmuşdur. Epistemik modallıq danışanın bilik və ya inanc səviyyəsini, bir hadisənin mümkünlüyünü və ya ehtimalını ifadə edir. Məsələn, "She might be at home" cümləsində might modallıq felinin köməyi ilə ehtimallıq bildirilir. Deontik modallıq isə fərdin və ya cəmiyyətin qoyduğu qanunlar, qaydalar və normativ öhdəliklərlə bağlı olan zərurilik və icazə hallarını əhatə edir. Məsələn, "You must wear a seatbelt" cümləsində must vasitəsilə hüquqi və ya etik bir zərurilik ifadə olunur.

## Əsas təhlil

İngilis dilində modallıq daha çox modal və yarımmodal fellər vasitəsilə ifadə olunur. Modal fellər həm idraki (epistemik), həm də deonitik (deontic) mənalar daşıyaraq müxtəlif məna çalarları yaradır. İdraki modallıq danışanın hadisəyə olan biliyinə və əminlik dərəcəsinə əsaslanırsa, deonitik modallıq hüquqi, sosial və ya etik qaydalar çərçivəsində öhdəlik və icazəni əks etdirir. Hər iki modallıq növü öz daxilində vacibliklik və mümkünlülük aspektlərinə bölünür ki, bu da onların semantik strukturunun daha da dərin və çoxqatlı olduğunu göstərir.Məqalədə Palmer, Jespersen, Von Wright və Rescher kimi nüfuzlu alimlərin modallıqla bağlı nəzəri yanaşmalarına toxunulmuş, onların

modallıq kateqoriyasına verdiyi müxtəlif təsnifatlar müqayisəli şəkildə təhlil edilmişdir. Bu təsnifatlar modallığın təkcə iki deyil, daha geniş semantik çərçivədə dəyərləndirilməsinin mümkün olduğunu ortaya qoyur.Sonda qeyd etmək lazımdır ki, modallıq yalnız modal fellərlə məhdudlaşmır. Zərflər, sifətlər, isimlər və digər leksik və qrammatik vasitələr də modallığın ifadəsində iştirak edə bilir. Bununla belə, modal fellər bu sistemin əsasını təşkil edir və modallığın öyrənilməsində başlıca rol oynayır.Beləliklə, modallıq anlayışı, onun növləri və ifadə vasitələri dilin mənalandırma funksiyalarını anlamaq baxımından olduqca vacibdir və gələcək tədqiqatlar üçün geniş araşdırma imkanları təqdim edir.

Jesperson, Von Right, Haliday, Palmer kimi alimlərin modallığa aid önəmli araşdırmaları vardır. Von Right modallığı 4 kateqoriyaya (Alethic\epistemic\deonitic\existential modality) bölür. Onun bu dörd kateqoriyasından ikisi idraki (epistemic) və deonitik (deonitic) modallıqdır və hər bir kateqoriyasının öz kontenti var. Palmer iddia edirdi ki, ingilis dili qrammatikasında modallar sistemindən daha mühüm və çətin bir sistem yoxdur. [3] O modallığı modallar və modallıq arasında əlaqələrə əsaslandığını təyin edir və modallar ilə modallıq arasında forma və mənaca eyni əlaqələrin olduğunu deyirdi. Jesperson modallığı 20 kateqoriyaya bölərək "danışanın cümlənin kontentinə müəyyən münasibəti olduğunu ifadə edirdi" (1924, p313). Onun bu təsnifatının modallığın müasir araşdırmalarda mühüm təsiri var.

Rescher (1968, p24) isə modallıq sistemini 8 alt kateqoriyaya bölürdü. Onun təsnifatında, həmçinin, bizim indi də istifadə etdiyimiz idraki və deonitik modallıq da daxildir. Əksər alimlər tərəfindən qəbul edilən təsnifatlardan biri də Von Wrightə aiddir. O modallığı 4 kateqoriyaya bölmüşdür. Onun da təsnifatında idraki və deonitik modallıq var idi.

**İdraki və ya epistemik modallıq**

Epistemik modallıq reallıqda doğru olan faktdan törəyib. O, danışanın öz fikri haaqqında nə qədər müəyyən və əmin olduğun bildirir (Griffiths, 2006).

*There is no answer, Mary must have gone-Cavab yoxdur, Meri getmiş olmalıdır.*

İdraki modallıq hər bir halda doğru olan məntiqi modallıqdan fərqlidir. İdraki modallıq özü də iki yarım kateqoriyaya, idraki vaciblilik və idraki mümkünlüyə bölünür. İdraki vaciblik real dünya bilgisindən irəli gəlsə də, hər zaman doğru olmaya bilər. İdraki mümkünlülük isə əksinə real dünya bilgisinə əsaslanmır. O sadəcə danışanın nəzəriyyəsinə görə mümkünlüklərdən birini təmin edir.

**İdraki vaciblilik**

*The dinosaurs must have died out suddenly-Dinozavrlar qəfildən ölmüş olmalıdırlar* (Kearns, 2000)

**İdraki mümkünlülük**

*It is possible that there is intelligent life in deep space-Kosmosun dərinliklərində ağıllı bir həyat olması mümkündür* (Kearns, 2000).

Timberleykə görə isə idraki modallıq sübutluluq modallığı və mühakimə modallığına bölünür. Adətən idraki modal cümlələrdə insana aid olmayan, ətraf dünya ilə bağlı mövzular yer alır.

Deonitik modallıq modallığın elə bir növüdür ki, danışanın arzu, tələb və qərarını ifadə edir. O daha çox cəmiyyətdə əxlaq, qayda, qanun və vəzifə əsaslı şərtləri ifadə edir. Deonitik bir fikir, məcburiyyət, icazə, tələb kimi fikirlərə aiddir.

Deonitik modallıq əsasən can\must\have to\ought to\could have done\ və s. ilə ifadə edilir. Denotik modallıq da deonitik lazımlılıq və deonitik mümkünlülüyə bölünür. Deonitik lazımlılıq inasanların əməl etməli olduğu məcburiyyət və qaydalarla əlaqələndirilir.Deonitik mümkünlülük isə icazə anlamlı fikirlərlə bağlıdır.

**Deonitik vaciblilik**

*You must follow the rules of the university-Sən universitetin qaydalarına əml etməlisən.*

**Deonitik mümkünlülük**
*You may go home-Sən evə gedə bilərsən.*

**Modal fellər və modallıq**

Modal fellər modallığın əsas daşıyıcılardır. Modal fellər cümlədə əsas felə əlavə məlumat, müxtəlif mümkünlük və lazımlılıq mərhələlərində məlumat əlavə edir. Məcburiyyət tələb bildirən modallar *must\need\have got to* aiddir. Should və ought to isə adətən dinləyələnə məsləhətlə əlaqələndirir. *Can* və ona keçmiş *could* mümkünlülüklə bağlıdır. Seçimlər, icazələr isə *may\might* kimi fellərlə ifadə edilir. Modallıq ifadə edən yarımmodallar da var. *Have to\need to\be able to.*
Modal fellərin əksəriyyətinin isə həm idraki, həm də deonitik işlənişi vardır. Mümkünlülük dərəcələrinin gücünə görə modal fellər müxtəlif dərəcələnir. *Must* güclü vaciblik bildirir, *ought to\sholud\can\may\could\might* mümkünlük bildirir. İdraki modallar reallıqda doğru ola bilən faktlardan əmələ gəlib.

*Can\could* bacarmaq, mümkünlük və icazə mənaları ifadə edir. Bəzi alimlər *can* modal felinin epistemik olduğunu, bəziləri isə deonitik olduğunu hesab edirlər. Əksər hallarda *can* modal felini *able to\be capable* to ilə əvəz etmək olur. *Could* mümkünlülük anlamalarında sual və inkar cümlələrdə işlənir. Can modal felinin üç əsas anlamındakı mümkünlülük ən çox işlənən mənası hesab olunur. Could modal feli **can** in keçmişi olsa da, bəzən keçmişlə bir bağlantısı yoxdur. Sadəcə nəzakətlilik və praqmatik mənalarında işlənir.
***Can** you help me tomorrow? – Sabah mənə kömək edə bilərsən? (bacarmaq) (Griffiths, 2006)*
***May** you help me tomorrow?- Sabah mənə kömək edə bilərsən? (icazə)*
***Can** you do it for me? –Sən bunu mənim üçün edə bilərsən? (mümkünlülük)*
***Could** you give me some help? –Mənə kömək edə bilərsənmi? (nəzakətlilik)*
*When John was young, he **could** read English-Con gənc olanda ingiliscə oxuya bilirdi . (zamandan uzaq)*
*If I were you, I **could** do it in this way-Əgər sənin yerində olsaydım, bunu eyni yolla edərdim. (reallıqdan uzaq)*
*May\might* mümkünlülük ifadə edir, yəni, hər ikisi mümkünlülük ifadə edən idraki modallıqdır. *Might* bəzən nəzaktlilik də ifadə edir. *He may be home-O olabilsin ki, evdədir.* (mümkünlülük) He *might be home-O ola bilsin ki evdədir*. (az mümkünlülük) *Might you be free to help me tomorrow?-Boş olsan mənə kömək edə bilərsənmi* (nəzakətlilik) (Griffiths, 2006, p. 111)
(3) *Will/Would* isə təxmin, öncədən güman etmə ifadə edir. Would da çox zaman nəzakətlilik ifadə edir. Will/would deonitik modallıq ifadə edir. He will be here at 5. (prediction-futurity) I will come this afternoon. (prediction-futurity) Would you help me? (politeness) I thought he would be here at 5. (past futurity)

*Must* güclü məcburiyyət ifadə edir. Amma bu modal felin idraki və deoniti olması konteksdən asılıdır. Çünki o obyektivlikdən çox subyektivlik ifadə edir. Bəzən *have to* ilə əvəzlənə bilir, amma eyni dəqiq mənada deyillər. *Have to* yalnız deonitik modallıq kimi işlənir.
*The ground is wet. It must have rained-Yer yaşdır.Yağış yağmış olmalıdır.* (lazımlılıq).
*He must be studying in the classroom, because he always does so-O, sinifdə çalışmış olmalıdır, çünki hər zaman belə edir.* (epistemik lazımlılıq) *He must be studying in the classroom, because he has on other places to go-O sinifdə çalışmağa məcburdur, çünki onun gedəcək başqa yeri yoxdur.* (deontik)
Should/Ought to : *Should* da *must* kimi vaciblilik bildirir. Lakin o *must* qədər güclü deyil. Palmerə görə *should* və *ought to* arasında ayırım qoymaq heç də aydın deyil. *They really should be home by now-Onlar həqiqətən indi gərək evdə olsunlar.* (necessity) They really ought to be home by now-Onlar həqiqətən gərək evdə olsunlar indi. (lazımlılıq)

**Modal Fellər and Deontik Modallıq.**

Deonitik mümkünlülük: *May* and *can* mümkünlülük bildirmək üçün işlədirilir. Lakin onlar deonitik modallar kimi də işlənir. Bu halda onalr icazədən çox mümkünlülüklə bağlı olur. *Can* modal feli *may* ilə müqayisədə daha rəsmi durumlarda işlənir. *May* in keçmiş zaman forması *might* icazə mənasında may modal felindən daha güclüdür. Daha çox tələb bildirir. *You may go home-Sən evə gedə bilərsən.* (icazə) *May I come in?-İcazə olar gəlim* (icazə) *You can go home-Sən evə gedə bilərsən.* (icazə) *You can leave now-Sən indi gedə bilərsən.* (icazə)

Deontik lazımlılıq: Must/Have to: Must ilə müqayisdə *have to must* dan daha obyektivdir. Have to yalnız obyektiv məcburiyyət ifadə edir. *You must finish all the tasks-Sən bütün tapşırıqları bitirməlisən.* (məcburiyyət) *You must be in London next week-Sən gələn həftə Londonda olmalısan.* (məcburiyyət)

*You must work hard-Sən çox çalışmalısan.* (subyektiv məcburiyyət)

*You have to work hard-Sən çox çalışmaq məcburiyyətindəsən.* (obyektiv məcburiyyət)

Will/Shall: *Will* deonitik modallıq kimi niyyət ifadə edir. I shall do it myself-Bunu özüm edəcəyəm. (niyyət) [5]

*Shall we replace the carpets? –Olar ki, xalçaları dəyişdirək* (məcburiyyət) (Let's replace the carpets)

Modallar ilə yanaşı birdə yarımmodallar vardır. Onlar həm əsas həm də köməkçi fellərin xüsusiyyətlərini daşıyırlar. Təxminən 20 qədər yarımmodal vardır. (Quirk et al, 1972). *are need, be able to, dare, had better, would rather and be going to və s.* Bəzi modalların idraki, bəzilərinin deonitik olmasını bəzən ayırmaq çətin olur. Bəzən *please-zəhmət olmasa* sözü idraki modalları deonitikdən ayıran bir işarə hesab olunur.Çünki bu söz nəzakətli təklif ifadə edir. Please daxil olan bilən bütün cümlələr deonitik modallıq hesab olunur.

**Nəticə**

Modallıq nitqdə çox işlənən bir kateqoriyadır. Modallıq əksər alimlərin diqqətini çəkən kateqoriyadır. Onlar modallığı öz standartlarına görə təsnif ediblər. Lakin idraki və deonitik modallıq bu təsnifatların demək olar ki, hamısında var. Modal fellər modallığın əsas daşıyıcılarıdır. Təkcə modal fellər deyil, isimlər, fellər, zərflər və başqa sintaktik formalar da modallığı ifadə edə bilir. Bəzi modallar yalnız idraki və ya deonitik olduğu halda, bəzilər həm idraki, həm də deonitik ola bilir. Bu daha çox onların ifadə etdiyi praqmatik mənadan asılıdır.Modallıq, dilin həm semantik, həm də pragmatik qatlarında özünü göstərən, danışanın fikrə münasibətini əks etdirən fundamental kateqoriyalardan biridir. Bu anlayış danışanın inam dərəcəsini, ehtimalları, vaciblik və icazə hallarını ifadə etməyə imkan verir və bu səbəbdən də insan düşüncəsi və ünsiyyətinin ayrılmaz hissəsidir.

**ƏDƏBİYYAT**

1. Fintel, Kai von. (2006). Modality and Language. In Encyclopedia of Philosophy, 2nd ed. D. M. Borchert: MacMillan.

2. Givon, Talmy. (2001). Syntax. Volume I. Amsterdam/Philadelphia: John Benjamins Publishing Company.

3. Griffiths, Patrick. (2006). An Introduction to English Semantics and Pragmatics. Edinburgh: Edinburgh University Press.

4. Halliday, M.A.K. (1985). An Introduction to Functional Grammar. London: Edward Arnold.

5. Jesperson,O. (1924). The Philosophy of Grammar. NY: Norton.

6.Narrog, Heiko (2013). Modality, Subjectivity and Semantic Change. A cross-linguistic perspective. Oxford: Oxford University Press.

***Naxçıvan Dövlət Universiteti, müəllim**
***E-mail: roya.q90@gmail.com***

**Roya Zeynalova**

**MODALITY IN ENGLISH: COGNITIVE AND DEONTIC PERSPECTIVES**

Modality is a category that expresses the real world, possibility and necessity, and is widely used in human speech. This article focuses on the main aspects of epistemic and deonitical modality, which are the two main categories of modality. The article also touches on modal verbs and semi-modals. The fact that some modal verbs are both epistemic and deonitic is explained by examples. It was emphasized that this duality of modals depends on the pragmatic meaning of them..

**Keywords**; *modality, modal verbs, epistemic modality, deonitic modality*

**Роя Зейналова**

**МОДАЛЬНОСТЬ В АНГЛИЙСКОМ ЯЗЫКЕ: КОГНИТИВНАЯ И ДЕОНТИЧЕСКАЯ ПЕРСПЕКТИВЫ**

Модальность — это категория, которая выражает реальный мир, возможность и необходимость, и широко используется в человеческой речи. В этой статье рассматриz ваются основные аспекты эпистемической и деонической модальности, которые являются двумя основными категориями модальности. В статье также затрагиваются модальные глаголы и полумодальные глаголы. Тот факт, что некоторые модальные глаголы являются как эпистемическими, так и деоническими, поясняется примерами. Было подчеркнуто, что эта двойственность модальных глаголов зависит от их прагматического значения.

**Ключевые слова;** *модальность, модальные глаголы, эпистемическая модальность, деоническая модальность*

*Filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.07.2025**
**Son daxilolma tarixi:24.08.2025**